# Azərbaycan - Türkmənistan münasibətləri

## Qısa tarixi məlumat:

İki ölkə arasında diplomatik münasibətlər 9 iyun 1992-ci ildə qurulmuşdur. Türkmənistanın Azərbaycandakı Səfirliyi 8 iyun 1999-cu ildə fəaliyyətə başlamış, 4 iyun 2001-ci ildə maliyyə çatışmazlığı səbəbindən Aşqabada köçürülmüş, 8 aprel 2008-ci ildə fəaliyyətini bərpa etmişdir. Azərbaycanın Türkmənistanda Səfirliyi 18 oktyabr 2002-ci ildə fəaliyyətə başlamışdır. Hal-hazırda Azərbaycan Respublikasının Türkmənistandakı Səfiri Vəhdət Sultan-zadədir.

## Yüksək səviyyəli qarşılıqlı səfərlər və görüşlər:

### Dövlət başçıları:

**1993-cü il 23-24 dekabr** – Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Türkmənistana işgüzar səfər etmişdir (MDB-yə üzv ölkələrin dövlət başçılarının Zirvə Görüşü).

**1994-cü il 14 may** – Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Türkmənistana işgüzar səfər etmişdir (İqtisadi Əməkdaşlıq Təşkilatının Zirvə Toplantısı).

**1996-cı il 18-19 mart** – Türkmənistan Prezidenti Saparmurat Niyazov Azərbaycana rəsmi səfər etmişdir.

**1996-cı il 13 may** – Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Türkmənistana işgüzar səfər etmişdir.

**2002-ci il 23-25 aprel** – Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Türkmənistana işgüzar səfər etmişdir (Xəzəryanı ölkələrin Dövlət Başçılarının Zirvə Toplantısı).

**2008-ci il 19-20 may** – Türkmənistan Prezidenti Qurbanqulı Berdımuxamedov Azərbaycana rəsmi səfər etmişdir.

**2008-ci il 28-29 noyabr** – Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkmənistana rəsmi səfər etmişdir.

**2008-ci il 29 noyabr** – Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Türkmənistan Prezidenti Qurbanqulı Berdımuxamedov və Türkiyə Prezidenti Abdullah Gülün Türkmənbaşı şəhərində üçtərəfli görüşü.

**2010-cu il 18 noyabr** – Türkmənistan Prezidenti Qurbanqulı Berdımuxamedov Azərbaycana işgüzar səfər etmişdir. (Xəzəryanı ölkələrin Dövlət Başçılarının 3-cü Zirvə Toplantısı).

**2014-cü il 4 iyun** - Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkmənistan Prezidenti Qurbanqulı Berdımuxamedovun Bodrum şəhərində (Türkiyə) görüşü (Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının 4-cü Zirvə Toplantısı).

**2014-cü il 5 iyun** - Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Türkiyə Respublikasının Prezidenti Abdullah Gül və Türkmənistan Prezidenti Qurbanqulı Berdımuxamedovun Bodrum şəhərində (Türkiyə) üçtərəfli görüşü (Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının 4-cü Zirvə Toplantısı).

**<u>Hökumət başçıları:</u>**

**2007-ci il 14 fevral** - Azərbaycan Respublikasının Baş naziri Artur Rasi-zadə Türkmənistana işgüzar səfər etmişdir (Türkmənistan Prezidenti Qurbanqulı Berdımuxamedovun andiçmə mərasimi).

**2007-ci il 22 noyabr** – Azərbaycan Respublikasının Baş naziri Artur Rasi-zadə Türkmənistana işgüzar səfər etmişdir (MDB-yə üzv ölkələrin Hökumət Başçıları Şurasının iclası).

**2012-ci il 5 dekabr** – Azərbaycan Respublikasının Baş naziri Artur Rasi-zadə Türkmənistana işgüzar səfər etmişdir.

**<u>Xarici İşlər Nazirləri:</u>**

**1998-ci il 5 fevral** - Azərbaycan Respublikasının xarici işlər naziri Həsən Həsənov Türkmənistana işgüzar səfər etmişdir (Xəzər dənizinin orta xətt koordinatları üzrə ekspertlər qrupunun 1-ci iclası).

**1998-ci il 30 mart** - Türkmənistanın xarici işlər naziri Boris Şıxmuradov Azərbaycana işgüzar səfər etmişdir (Xəzər dənizinin orta xətt koordinatları üzrə ekspertlər qrupunun 2-ci iclası).

**1998-ci il 8 may** - Türkmənistanın xarici işlər naziri Boris Şıxmuradov Azərbaycana səfər etmişdir (Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 75-illik yubileyi).

**1999-cu il 18-21 may** - Türkmənistanın xarici işlər naziri Boris Şıxmuradov Azərbaycana işgüzar səfər etmişdir (İqtisadi Əməkdaşlıq Təşkilatının 9-cu toplantısı).

**2007-ci il 23 may** - Azərbaycan Respublikasının xarici işlər naziri Elmar Məmmədyarov Türkmənistana səfər etmişdir.

**2008-ci il 5 mart** - Türkmənistanın xarici işlər naziri Raşid Meredov Azərbaycana işgüzar səfər etmişdir.

**2010-cu il 11 dekabr** - Azərbaycan Respublikasının xarici işlər naziri Elmar Məmmədyarov Türkmənistana işgüzar səfər etmişdir (Türkmənistanın bitərəfliyinin 15 illiyinə həsr olunmuş "Türkmənistanın daimi bitərəfliyi - sülh, inkişaf və təhlükəsizlik naminə əməkdaşlıq" adlı beynəlxalq konfrans).

**2014-cü il 2-3 aprel** - Türkmənistan Baş nazirinin müavini, xarici işlər naziri Raşid Meredov Azərbaycana rəsmi səfər etmişdir.

**2014-cü il 25-26 may** - Türkmənistan Baş nazirinin müavini, xarici işlər naziri Raşid Meredov Azərbaycana səfər etmişdir (Azərbaycan Respublikası, Türkiyə Respublikası və Türkmənistan xarici işlər nazirlərinin Birinci üçtərəfli görüşü).

**<u>Parlamentlərarası əlaqələr:</u>**

Azərbaycan-Türkmənistan parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Astan Şahverdiyevdir.

**2008-ci il 18-20 iyun** - Türkmənistan Məclisinin (Parlament) Sədri Akca Nurberdiyeva Azərbaycana işgüzar səfər etmişdir (Azərbaycan Parlamentinin 90 illik yubileyi).

**<u>Humanitar sahədə əməkdaşlıq:</u>**

**Səfərlər:**

**5-6 fevral 2003-cü ildə** Türkmənistanın mədəniyyət naziri Orazgəldi Aydoğduyev Türkdilli Dövlətlərin Mədəniyyət nazirləri Daimi Şurasının XIX iclasında iştirak etmək üçün Bakıda səfərdə olmuşdur.

**Mədəni və humanitar tədbirlər:**

**3-6 noyabr 2009-cu ildə** Türkmənistanda Azərbaycan mədəniyyət günləri keçirilmişdir.

**3-6 noyabr 2010-cu ildə** Azərbaycanda Türkmənistan mədəniyyət günləri keçirilmişdir.

**2014-cü il 15-16 may -** Azərbaycan Respublikasının mədəniyyət və turizm naziri Əbülfəs Qarayev Türkmənistana işgüzar səfər etmişdir (Mahtumqulu Fəraqinin 290 illiyi).

**Müqavilə-hüquq bazası:**

Azərbaycan Respublikası ilə Türkmənistan arasında 40-dan artıq sənəd imzalanmışdır.

**Link:** http://www.azembassy-tm.org/

*Son yenilənmə tarixi: 18.09.2014*